*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 6-11* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.6*

# HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI

**İsa Həbibbəyli**
AMEA-nın prezidenti, akademik
E-mail: isa.habibbeyli@science.az
ORCİD: https://orcid.org/0000-0003-1957-0778

**Xülasə.** Heydər Əliyevin türk dünyası ilə siyasi, diplomatik, iqtisadi, sosial və hərbi sahələri əhatə edən hərtərəfli fəaliyyətində elm, təhsil, incəsənət və ədəbiyyatla bağlı istiqamətlərin xüsusi yeri vardır.
Hadisələr göstərdi ki, Heydər Əliyev hələ sovet hakimiyyətinin Türkiyə Cümhuriyyəti ilə əlaqələrinin ən çətin və gərgin olduğu XX əsrin yetmişinci illərində qardaş ölkənin o zamankı dövlət xadimi Süleyman Dəmirəllə ünsiyyət yaratmış və çətinliklə olsa da, dostluq münasibətini davam etdirmişdir. Bu, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının erməni işğalından xilas edilməsində və Qarabağ məsələsinin həlli proseslərində son dərəcə faydalı olmuşdur.
Heydər Əliyevin Azərbaycan və Türkiyə münasibətləri və bütün türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edən Böyük Millət Məclisində səsləndirdiyi "Bir millət, iki dövlət" düsturunu qeyd etmək də çox vacibdir. Bu düstur Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın beynəlxalq əhəmiyyətə malik diplomatik münasibətlərində bu gün də öz parlaq əksini tapır.
Dahi şəxsiyyətin "Kitabi-Dədə Qorqud", "Manas" və "Koroğlu" kimi folklor abidələrinə xüsusi ehtiramla yanaşması, nəticə etibarilə onun ortaq türk köklərinə inamının ifadəsi idi.
Heydər Əliyev qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayevi bütün bəşəriyyətə, o cümlədən də Azərbaycan xalqına məxsus olan qüdrətli sənətkar kimi səciyyələndirmişdir.
Məqalədə belə bir fakt da xüsusi vurğulanır ki, türk dünyası XX əsrdə dünya siyasətində Heydər Əliyevlə, dünya ədəbiyyatında isə Çingiz Aytmatovla təmsil olunmuşdur.
Ulu öndərin görkəmli qazax yazıçısı Oljas Süleymenov haqqındakı dəyərli fikirləri də məqalədə ətraflı qeyd edilmişdir.
**Açar sözlər:** Türk dünyası, Heydər Əliyev, Süleyman Dəmirəl, Azərbaycan, "Kitabi-Dədə Qorqud", qarşılıqlı əməkdaşlıq, qırğız yazıçısı

**Məqalə tarixçəsi:** göndərilib – 19.05.2023; qəbul edilib – 30.05.2023

# HEYDAR ALIYEV AND TURKIC WORLD

**Isa Habibbeyli**
President of ANAS, academician
E-mail: isa.habibbeyli@science.az
ORCİD: https://orcid.org/0000-0003-1957-0778

**Abstract.** In Heydar Aliyev's comprehensive activities with the Turkic world, covering political, diplomatic, economic, social and military fields the directions related to science, education, art and literature have a special place.
Events indicates that in the 70s of the 20th century, when relations between the Soviet government and the Turkish Republic were the most complex and tense, Heydar Aliyev communicated with

Suleyman Demirel, statesman of the brother country at that period, and in spite of all the difficulties maintained friendly relations. First of all, it was extremely advantageous in saving the Nakhchivan Autonomous Republic from Armenian occupation and in the solution of the Karabakh issue.
It is also very important to make a note the formula of “One Nation, Two States” voiced by Heydar Aliyev in the Turkish Grand National Assembly, which has a special importance for Azerbaijan-Turkey relations and the entire Turkish world. This formula finds its bright reflection in the international diplomatic relations between the President of the Republic of Azerbaijan Ilham Aliyev and the President of the Republic of Turkey Recep Tayyip Erdogan.
The great personality's special respect for folklore monuments such as “The Book of Dada Gorgud”, “Manas” and “Koroghlu” was an expression of his belief in common Turkish roots.
Heydar Aliyev characterized Abay Kunanbayev, the founder of Kazakh written literature as a great artist belonging to all humanity, including the Azerbaijani people.
In the article it is also emphasized the fact that in the 20th century the Turkic world was represented in world politics by Heydar Aliyev, and in world literature by Chingiz Aitmatov.
In the article, the great leader's valuable opinions on Oljas Suleymenov, one of Kazakh's prominent writers, are also mentioned in detail.
**Keywords:** Turkic world, Heydar Aliyev, Suleyman Demirel, Azerbaijan, “The Book of Dada Gorgud”, mutual cooperation, Kyrgyz writer

**Article history:** received − 19.05.2023; accepted − 30.05.2023

## Giriş / *Introduction*

Heydər Əliyev və türk dünyası geniş bir mövzu olaraq Azərbaycan xalqının Ümummilli liderinin ayrı-ayrı türk dövlətləri və xalqları ilə çoxcəhətli əlaqələrini özündə cəmləşdirir. Heydər Əliyevin türk dünyası ilə siyasi, diplomatik, iqtisadi, sosial və hərbi sahələri əhatə edən hərtərəfli fəaliyyətində elm, təhsil, ədəbiyyat və incəsənət istiqamətlərinin də özünəməxsus yeri və əhəmiyyəti vardır. Heydər Əliyevin türk dünyası ilə əlaqələrində ədəbiyyatla bağlı xüsusi məqamlar var.

Hadisələr göstərdi ki, Heydər Əliyev hələ sovet hakimiyyətinin Türkiyə Cümhuriyyəti ilə əlaqələrinin ən çətin və gərgin olduğu XX əsrin yetmişinci illərində qardaş ölkənin o zamankı tanınmış dövlət xadimi Süleyman Dəmirəllə ünsiyyət yaratmış və dostluq münasibətlərini çətin də olsa, davam etdirmişdir. Çətin günlərin dostluğu Azərbaycanın dar günlərində yenidən üzə çıxmış, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının erməni işğalından xilas edilməsində və Qarabağ məsələsinin həlli proseslərində Azərbaycan üçün son dərəcə faydalı olmuşdur. Türkiyə Cümhuriyyətinin Cümhur başqanı Süleyman Dəmirəlin özünün xüsusi təyyarəsi ilə Naxçıvana gəlib, burada böyük və etibarlı dostu Heydər Əliyevlə birlikdə işğalçı Ermənistana sərt bəyanatlar səsləndirməsi XX əsrin doxsanıncı illərinin mürəkkəb dövründə Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etmişdir.

## Əsas hissə / *Main Part*

Süleyman Dəmirəlin Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında Araz çayı üzərində salınmış Ümid körpüsünün açılışı mərasimində Heydər Əliyevlə birlikdə iştirak etməsi və nitq söyləməsi təkcə Azərbaycan üçün yox, türk dünyasından ötrü son dərəcədə əhəmiyyətli hadisə idi. Türk dünyasının iki nəhəng liderinin 28 may 1992-ci il tarixdə Araz çayı üzərində açdıqları Sədərək – Dilucu Ümid körpüsü yalnız Azərbaycanla deyil, bütün türk dünyası ilə Türkiyəyə əhəmiyyətli bir qapının açılması deməkdir. Vaxtilə Mustafa Kamal Atatürkün qızıl pula aldığı Aralıq Dilucundakı 11 kilometrlik quru sərhəd ərazisi təxminən 70 ildən sonra həm Türkiyə və türk dünyası və həm də Azərbaycan – Naxçıvan üçün mühüm strateji əhəmiyyətə malik bir faktora çevrilmişdir. Ümumiyyətlə, Heydər Əliyev – Süleyman Dəmirəl münasibətləri Azərbaycan – Türkiyə əlaqələrində xüsusi bir mərhələ təşkil edir. Bu tarixi mərhələnin ayrıca tədqiq edilib araşdırılmasına ehtiyac vardır.

İkincisi, Heydər Əliyevin Azərbaycan və Türkiyə münasibətləri və bütün türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edən Böyük Millət Məclisində səsləndirdiyi "Bir millət, iki dövlət" düsturu üzərində dayanmağı zəruri hesab edirəm. Əlbəttə, "Bir millət, iki dövlət" gerçəkliyi, hər şeydən əvvəl, Azərbaycan – Türkiyə münasibətlərinin tarixini və müasir əhəmiyyətini çox dəqiq ifadə edən, atalar sözü kimi səslənən müdrik bir aforizmdir. Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı qısa vaxtda inkişaf edərək, Azərbaycan – Türkiyə münasibətlərində strateji xarakterli müttəfiqliyə qədərki bütün istiqamətləri əhatə edən bir düstura çevrilmişdir. Biz İkinci Qarabağ müharibəsində "Bir millət, iki dövlət" prinsipinin nə qədər böyük əhəmiyyətə malik olduğunu əyani şəkildə görə bildik. "Bir millət, iki dövlət" düsturu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın 15 iyun 2021-ci ildə işğaldan azad olunmuş Şuşa şəhərində imzaladıqları məşhur "Şuşa Bəyannaməsi" ilə dövlətlərarası münasibətlərin inkişafını tənzimləyən və istiqamətləndirən beynəlxalq əhəmiyyətə malik olan diplomatik hadisə səviyyəsinə yüksəldilmişdir.

Müasir dövrdə İlham Əliyev – Rəcəb Tayyib Ərdoğanın birliyi və həmrəyliyi türk dünyasının böyük gələcəyinin əsas təminatı deməkdir. Artıq Heydər Əliyevin böyük uzaqgörənliklə ifadə etdiyi "Bir millət, iki dövlət" gerçəkliyi türk dünyasında sürətlə genişlənməkdə olan inteqrasiyanın nəticəsində "Bir millət, iki dövlət"ə doğru inkişaf etməkdədir.

Heydər Əliyevin hələ sovet hakimiyyəti illərində Qazaxıstanda və Özbəkistanda baş verən gərgin hərbi-siyasi hadisələr zamanı Siyasi Büro səviyyəsində qazax və özbək xalqlarının mənafelərini müdafiə etməsi bütün tərəfləri ilə bir sırada, həm də onun ortaq türk köklərinə bəslədiyi yüksək münasibətin ifadəsidir. Heydər Əliyevin türk xalqlarına münasibəti müasir dövrün hadisələrindən ortaq folklor abidələrinə qədərki geniş mənaları əhatə edir.

Türk dünyasının ortaq dəyərlərinə xüsusi ehtiram bəsləmiş dahi şəxsiyyətin "Kitabi-Dədə Qorqud", "Manas", "Koroğlu" kimi folklor abidələrinə xüsusi ehtiramla yanaşması nəticə etibarilə onun ortaq türk köklərinə inam və etibarının ifadəsi idi. Qırğız xalqının qədim folklor abidəsi olan "Manas" dastanının 1000 illiyi münasibətilə 28 avqust 1995-ci ildə Qırğızıstanda keçirilən tədbirlərdə iştirak edərkən söylədiyi aşağıdakı sözlər Heydər Əliyevin ortaq türk dəyərlərinə nə qədər dərindən bələd olduğunu və həmin dəyərlərə hansı mövqedən yanaşdığını əyani surətdə göstərir: "Manas" qırğız xalqının müdrikliyinin rəmzidir. "Manas"… bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, İslam dünyasının böyük mənəvi sərvətidir.

"Manas", eyni zamanda Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi-mədəni sərvətidir. "Manas" bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır" (Əliyev, 1999, s. 283).

Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi haqqında Fərman imzalaması və bu möhtəşəm ədəbi abidənin dünyada tanıdılması üçün UNESCO səviyyəsində və Türk Dövlətləri Başçılarının Zirvə Toplantısı miqyasında tədbirlər keçirməsi təkcə ölkəmizdə yox, bütövlükdə türk dünyasında milli-mənəvi özünüdərk, soykökə qayıdış baxımından son dərəcə əhəmiyyətli hadisədir.

Heydər Əliyev qazax xalqının böyük oğlu, qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayevin 9 avqust 1995-ci ildə Almatı şəhərində keçirilən 150 illik yubileyində iştirak etmiş və bu böyük mütəfəkkir haqqında ürək sözlərini bildirmişdir. Ulu öndər "Manas" kimi, qazax xalqının fəxri olan Abayı da bütün bəşəriyyətə, o cümlədən də Azərbaycan xalqına məxsus olan qüdrətli sənətkar, böyük maarifçi-mütəfəkkir olaraq səciyyələndirmişdir. O, eyni zamanda türk xalqları arasında başlanan inteqrasiyasının genişlənməkdə olduğunu nəzərdə tutaraq, "belə hesab edirəm ki, Abayın bayramı məhz onun bu gün həyata keçən ideyalarının bayramıdır" (Əliyev, 1999, s. 281) – sözləri ilə yeni tarixi şəraitdə "suveren dövlətlər kimi geniş inkişaf yoluna çıxmış" türk respublikalarının birlikdə irəliləyib inkişaf edəcəyinə dərin inamını ifadə etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin qazax xalqının böyük klassiki Abay Kunanbayevin yubileyi mərasimində türk xalqlarının inteqrasiyasına "Abayın, xalqlarımızın böyük övladlarının qoyub getdikləri irs zəminində" qiymət verməsi onun qarşılıqlı əlaqələrdə ortaq tarixi keçmişlə müasir dövrdə birgə fəaliyyətin üzvi surətdə əlaqələndirilməsinin əhəmiyyətinə bəslədiyi inamın göstəricisidir: "Keçmişdən bizə irs qalan hər şeyin, böyük Abayın, xalqlarımızın böyük övladlarının qoyub get-

dikləri irs zəminində mədəniyyətimizi, elmimizi, iqtisadiyyatımızı inkişaf etdirmək və xalqımızı xoşbəxtliyə və firavanlığa çıxarmaq üçün irəliləyəcəyik" (Əliyev, 1999, ss. 281-282).

Bu mənada Heydər Əliyev və Çingiz Aytmatov türk dünyasının qoşa qanadlarıdır. Türk dünyası XX əsrdə dünya siyasətində Heydər Əliyevlə, dünya ədəbiyyatında isə Çingiz Aytmatovla təmsil olunmuşdur. Dünya miqyaslı bu böyük şəxsiyyətlərin bir-biriləri haqqındakı fikirləri obyektiv qiymətin ifadəsi olmaqla bərabər, onların fəaliyyətləri və xidmətlərinin dərin mənasını və mahiyyətini bütün reallıqları ilə əks etdirir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Çingiz Aytmatovun ədəbiyyat sahəsindəki xidmətləri və böyük qırğız yazıçısının ədəbi şöhrəti haqqındakı sözləri onun dünya ədəbiyyatı və ictimai fikrinin inkişafındakı rolunu ümumiləşdirilmiş şəkildə canlandırır. Heydər Əliyevin dərinmənalı sərrast fikirlərində Çingiz Aytmatov sənətinin yeri və mahiyyəti dahiyanə şəkildə ifadə olunmuşdur: "Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş Çingiz Aytmatov həm Qırğızıstanın, həm də türk dünyasının fəxridir" (Əliyev, 1998).

Eyni zamanda Çingiz Aytmatovun da Ulu öndər Heydər Əliyev haqqındakı fikirləri özünün dərin mənası və əhatə dairəsi etibarilə sanki böyük bir romanın tezisləri təəssüratı yaradır. Çingiz Aytmatovun uzun illər ərzində apardığı müşahidələr əsasında formalaşdırdığı fikirlər Heydər Əliyevin siyasi tərcümeyi-halının ana xətlərini və xidmətlərini romanlarda olduğu kimi, canlı və əyani şəkildə mənalandırır. Heydər Əliyevin həyatı, həqiqətən də XX əsrin 30-cu illərindən XXI əsrin başlanğıcına qədərki epoxanın bütün keşməkeşlərinin və mübarizələrinin epopeyasıdır. Bu baxımdan müqayisə üçün deyək ki, dünyanın görkəmli dövlət və elm xadimlərindən heç kəs Heydər Əliyevin keçdiyi məsuliyyətli və şərəfli yolun qiymətini və Ulu öndərin yeni epoxadakı funksiyalarını Çingiz Aytmatov qədər bütün təfərrüatları ilə birlikdə əks etdirə bilməmişdir. Çingiz Aytmatovun Heydər Əliyev haqqındakı fikirlərində dərin yazıçı müşahidələri ilə həm də siyasətçi olan mütəfəkkir şəxsiyyətin siyasi baxışları vəhdətdə ifadə olunmuşdur. Bu mənada Çingiz Aytmatovun aşağıdakı fikirləri görkəmli dövlət xadimi Heydər Əliyevin çətin, keşməkeşli və şərəfli taleyini bütün təfərrüatları və genişliyi ilə əks etdirir: "Heydər Əliyev, həqiqətən də tarixi və əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü MDB məkanında, xeyli çətinləşmiş dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur.

Heydər Əliyev və onun yoldaşlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti – müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir" (Həbibbəyli, 2018, s. 41).

Göründüyü kimi, Heydər Əliyev və Çingiz Aytmatovun fikirlərində bu böyük şəxsiyyətlərin həm dünya, həm də mənsub olduqları xalqlar miqyasında rolu və xidmətləri ümumiləşdirilmiş şəkildə əks etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XXI əsrin lideri kimi Çingiz Aytmatovla dialoqu davam etdirmişdir. Prezident İlham Əliyevin 25 fevral 2008-ci il tarixdə Çingiz Aytmatovu "Dostluq" ordeni ilə təltif etməsi bu böyük söz ustadına müstəqil Azərbaycan dövlətinin yüksək münasibətini əks etdirir. Dövlət başçımız, eyni zamanda Çingiz Aytmatovun xidmətlərini dəyərləndirərkən onun Azərbaycanla, Ulu öndər Heydər Əliyevlə olan münasibətlərinin də mühüm faktor olduğunu nəzərə çatdırmışdır: "Siz həmişə, bütün dövrlərdə Azərbaycanın dostu olmuşsunuz. Bu, sovet dövründə də belə olub, müstəqillik dövründə də…. Çətin anlarda Siz həmişə ədalətin, sülhün, əməkdaşlığın tərəfdarı kimi öz qətiyyətli sözünüzü demişsiniz".

Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətçilik fəaliyyətini yüksək dəyərləndirərək, Azərbaycan rəhbərliyini "qloballaşan dünyanın lider etalonu" adlandırmışdır.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti sayəsində 2008-ci ilin fevral ayında Bakı şəhərində "Çingiz Aytmatov həftəsi" keçirilmişdir. Bundan başqa, Azərbaycanda Çingiz Aytmatovun həyatı və yaradıcılığı haqqında qiymətli elmi

əsərlər yazılıb nəşr etdirilmişdir. Mübaliğəsiz demək olar ki, Azərbaycan dünya aytmatovşünaslığının əsas mərkəzlərindən biridir.

Beləliklə, görkəmli qırğız yazıçısı Çingiz Aytmatovla Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev və Prezident İlham Əliyevin səmimi və etibarlı dialoqu türk dünyasında dövlət başçısı və yazıçı münasibətlərinə ən parlaq nümunə ola bilər. Müstəqil Azərbaycan dövləti rəhbərlərinin Çingiz Aytmatovun şəxsiyyətinə və yaradıcılığına bəslədikləri yüksək münasibət, ümumiyyətlə, geniş mənada dövlət və ədəbiyyat münasibətlərinə, yaxud dövlətin ədəbiyyat siyasətinə əhəmiyyətli bir örnək sayılmağa layiqdir.

Heydər Əliyev və türk dünyası mövzusu ətrafında düşünərkən, Ulu öndərin görkəmli qazax yazıçısı və mütəfəkkiri Oljas Süleymenovla münasibətlərindən söz açmamaq olmaz. Hələ sovet hakimiyyəti illərindən Azərbaycan Sovet Respublikasının rəhbəri ilə şəxsən tanış olan Oljas Süleymenov o dövr üçün səciyyəvi olmayan problemləri əks etdirən “Az i Ya” əsəri ətrafında Sovetlər İttifaqının rəsmi siyasi-ideoloji dairələrində müzakirələr aparılarkən, Siyasi Büronun üzvü Heydər Əliyevin dəstəyi ilə onu gözləyən real təhdidlərdən xilas ola bilmişdir. Oljas Süleymenov görkəmli dövlət xadimi Heydər Əliyevi özünün ən böyük müəllimi və ustadı hesab edir. Azərbaycanın böyük dostu Oljas Süleymenovun 20 Yanvar 1990-cı il hadisələrində Azərbaycana gələrək, ölkəmizdə baş verən hadisələr haqqındakı informasiyaları dünya ictimaiyyətinə çatdırması türk dünyası ziyalıları üçün əsl nümunə sayılmalıdır.

Oljas Süleymenovun aşağıdakı sözləri onun Heydər Əliyev fenomeninə bəslədiyi xüsusi münasibəti aydın surətdə mənalandırır: “Böyük siyasətçi və dövlət xadimi Heydər Əliyevi ata qədər sevmiş, fəaliyyətini həmişə dəyərləndirmişəm. Heydər Əliyev dahi şəxsiyyətdir. XX əsrdə Avrasiyada dövlət ideyalarını inkişaf etdirən bu nadir şəxsiyyət əlaqələrimizi nəinki Azərbaycanla, həm də türk dünyası ilə bağlayan görkəmli siyasətçilərdən idi. Onun həyatı və dünyagörüşü xalqlarımızın mənəvi dünyasını zənginləşdirdi”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də tanınmış qazax yazıçısı və mütəfəkkiri Oljas Süleymenovun ədəbi-ictimai fəaliyyətinə, ölkəmizlə əlaqələrinə yüksək qiymət verir və bu münasibətlərin daha da inkişaf etdirilməsinə qayğı göstərir. Oljas Süleymenovun ölkəmizə hər səfəri, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin inkişaf etdirərək möhkəmləndirdiyi Azərbaycan–Qazaxıstan əlaqələrinin tarixi salnaməsinə qiymətli səhifələr əlavə edir.

## Nəticə / *Conclusion*

Göründüyü kimi, Ulu öndər Heydər Əliyevin türk dünyası ilə əlaqələri ortaq köklərə malik olan xalqlar arasında siyasi etimad, qarşılıqlı əməkdaşlıq, ədəbiyyatlar və mədəniyyətlər arasında dialoq və sair kimi istiqamətlərdə artıq tarixə çevrilmiş hadisələrdən geniş şəkildə bəhs etməyə imkan yaradır. Hazırda türk dünyasının ortaq problemlərini istiqamətləndirmək, qarşılıqlı əməkdaşlıq, birlik və həmrəylik missiyasını nüfuzlu beynəlxalq təşkilatlar kimi fəaliyyət göstərən Türk Dövlətləri Təşkilatı, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu və sair kimi qurumlar həyata keçirirlər. Bütün bunlar isə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörən arzularının həyata keçirilməsi deməkdir.

## Ədəbiyyat / *References*

Əliyev, H. (1998, dekabr 8). Dünya şöhrətli yazıçı, görkəmli ictimai xadim Çingiz Aytmatova təbrik məktubu. *“Azərbaycan” qəzeti*.

Əliyev, H. (1999). *Ədəbiyyatın yüksək borcu və amalı.* Bakı: Ozan.

Həbibbəyli, İ. (2018). *Çingiz Aytmatov haqqında söz.* Bakı: Elm və təhsil.

# ГЕЙДАР АЛИЕВ И ТЮРКСКИЙ МИР

**Иса Габиббейли**
Президент НАНА, академик
E-mail: isa.habibbeyli@science.az
ORCİD: https://orcid.org/0000-0003-1957-0778

**Резюме.** В многогранной деятельности Гейдара Алиева, охватывающей политическую, дипломатическую, экономическую, социальную и военную сферы тюркского мира, особое место принадлежит науке, образованию, искусству и литературе. События показали, что Гейдар Алиев ещё в тяжёлые семидесятые годы XX века, во времена самых сложных и напряжённых отношений советского правительства с Турецкой Республикой, имел дружескую связь с тогдашним государственным деятелем братской республики Сулейманом Демирелем и, несмотря на препятствия, продолжил эту дружбу. И это, в первую очередь, имело важнейшее значение в процессе вопросов спасения Нахчыванской Автономной Республики от армянской оккупации и решения Карабахского вопроса. Также нужно отметить прозвучавший в Милли Меджлисе лозунг: «Два государства – одна нация!», имеющий особо важное значение в отношениях между Турцией и Азербайджаном и для всего тюркского мира. Этот лозунг нашёл блистательное отражение в дипломатических отношениях между Президентом Азербайджанской Республики Ильхамом Алиевым и Президентом Турецкой Республики Реджеп Теййиб Эрдоганом, имеющих международное значение.
Особо уважительное отношение гениальной личности лидера к таким фольклорным памятникам, как «Китаби-Деде Горгуд», «Манас», «Кёроглу», в результате было выражением веры общетюркским корням.
Гейдар Алиев оценивал основоположника казахской письменной литературы Абая Кунанбаева как великого художника, принадлежащего всему миру, в том числе и азербайджанскому народу.
В статье особо подчёркивается, что Гейдар Алиев был представителем политики XX века, а Чингиз Айтматов – мировой литературы.
В статье отмечены и разносторонние суждения великого лидера о выдающемся казахском писателе Олжасе Сулейменове.
**Ключевые слова:** тюркский мир, Гейдар Алиев, Сулейман Демирель, Азербайджан, «Китаби-Деде Горгуд», взаимное сотрудничество, киргизский писатель